Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 29, 2024. 39-54
DOI: 10.30546/2616-4418.29.2024.39 http://www.ejsr.org

# KVANT FİZİKASININ BƏZİ NƏTİCƏLƏRİNİN FƏLSƏFİ TƏHLİLİNDƏ QEYRİ-SƏLİS ÇOXLUQLAR NƏZƏRİYYƏSİNİN YERİ:EPİSTEMOLOJİ ASPEKTLƏR

**Əlişirin ŞÜKÜROV** [1]
*Dövlət İmtahan Mərkəzi, Azərbaycan*

## Giriş

Qeyd edək ki, kvant fizikasının əsas prinsiplərindən sayılan qeyri-müəyyənlik prinsipi qeyri-müəyyənlik anlayışının elmin bir çox sahələrinin və fəlsəfənin tədqiqat obyektinə çevrilməsinə səbəb oldu [10]. Hazırda elmi-nəzəri, elmi-praktik məsələlərin həllində və fəlsəfi araşdırmalarda qeyri-müəyyənlik əsasən bu şəkildə təsnifatlaşdırılır: stoxastik (ehtimallı) qeyri-müəyyənlik və linqivistik qeyri-müəyyənlik [6]. Stoxastik forma – təsadüfi faktorlarla bağlı olub ehtimal nəzəriyyəsi və onun əsasında yaranmış digər nəzəriyyələr vasitəsilə öyrənilir. İkinci, linqivistik forma – qeyri-dəqiqlik (qeyri-səlislik) ilə bağlı olub, əsasən qeyri-səlis çoxluqlar (qeyri-səlis məntiq) nəzəriyyəsi vasitəsilə öyrənilir. Bu baxımdan qeyri-səlis çoxluqlar nəzəriyyəsinin fəlsəfəsinin

[1] Riyaziyyat üzrə fəlsəfə doktoru, fəxri professor,
Abituriyent jurnalı redaksiyası, Yaradıcı qrupun rəhbəri (DİM)

BY NC ND

müxtəlif istiqamətlərdən araşdırılmasında kvant fizikasının bəzi nəticələrinin fəlsəfəsinə nəzər yetirmək və bu nəticələrin fəlsəfi fikir tarixində olan bəzi nümunələrlə müqayisəli təhlili də müəyyən maraq kəsb etməklə xüsusi əhəmiyyət daşıya bilər.

Kvant fizikasının möhtəşəm nəticələri uzun bir dövr ərzində düşüncə adamlarını şübhədə saxlayan bəzi mülahizələri gerçəkliyə çevirə bildi. Lakin qeyd etməliyik ki, elmi təsdiqini tapsa da, bu gün də öz sehri ilə heyrətə, şübhə dolu məqamlarıyla müəyyən tərəddüdlərə səbəb olur bu nəticələr. Kvant fizikasının elmi baxımdan inkar edilməsə də, insan məfkurəsinin sərhədlərini aşan və daha çox metafizik məna daşıyan nəticələrinin fəlsəfəsini araşdırmağa nail olsaq, bunun nə böyük həzz aşıladığının şahidi olarıq. Əslində, bu elmi qənaətlərin özü yaradıcı təfəkkürü lərzəyə salan, bir çox hadisələrin həm də fəlsəfi təsvirini cızan fikir şəbəkəsi, fəlsəfi tezislər təşnəsidir [2,3,4].

Kvant fizikasından alınan heyrətamiz metafizik nəticələrin varlıq haqqında dünyanın neçə minillik fəlsəfi - ontoloji fikirləri ilə müqayisəli təhlilini aparıb, bu müqayisədə qeyri-səlis çoxluqlar nəzəriyyəsinin fəlsəfəsinin yerinin müəyyənləşdirilməsi məsələsinin epistomoloji yanaşma baxımından əhəmiyyətli olacağını hesab edirəm. Bu məsələnin araşdırılmasının daha geniş elmi və fəlsəfi təhlil tələb etdiyinin fərqindəyəm. Hazırda isə məqsədim bir məqalənin imkanları daxilində bu məsələnin təhlilinə yer verməkdir və eyni zamanda bu istiqamətdə araşdırmaların davam etdirilməsini zəruri sayıram.

Əvvəlcə kvant fizikasının əsas metafizik nəticələrini ümumi şəkildə nəzərdən keçirək. Hesab edirik bu ümumiləşdirmə varlıq haqqında fəlsəfi fikirlər xəzinəsinə müqayisəli təhlil üçün tez açar tapmağa imkan verəcək.

## Kvant fizikasının bəzi nəticələri

Kvant fizikasının bəzi nəticələrinin araşdırma predmetimizə uyğun şəkildə müəyyən ümumiləşdirməsini aparaq. Bu ümumiləşdirmənin dünya fəlsəfi sistemində varlıq barədə mövcud bəzi ontoloji fikirlərlə paralellər aparmaq və elmi-fəlsəfi müqayisə üçün daha aydın mənzərə yaradacığını hesab edirəm. Bu məqsədlə əvvəlcə kvant fizikasının metafizik məna daşıyan bəzi nəticələrini anlaşılan tərzdə - populyar bir dildə təqdim edək [2,3,15]:

1. ***Elementar hissəciyin zərrəcik-dalğa - dualizm xüsusiyyəti.*** Atom və atomaltı hissəciklər müşahidəçidən asılı olaraq ya dalğa (enerji), ya da zərrəcik (maddə) olaraq davranırlar - müşahidəçi yoxdursa özlərini dalğa, müşahidəçi varsa zərrəcik kimi aparırlar. Maddə kimi müşahidə olunanın təməlində həmişə qeyri-maddi olan (enerji) var. Müşahidə edilərkən maddə

var, müşahidə olunmadıqda yoxdur. Bir sözlə, müşahidə maddəni var edir (Qoşa yarıq eksperimenti).

2. ***Qeyri-müəyyənlik prinsipi.*** Hissəciyin sürətini və koordinatını (vəziyyətini) eyni anda dəqiq hesablamaq mümkün deyil – həmişə qeyri-müəyyənlik yaranır. Sürətini dəqiq hesablamağa çalışırsan, vəziyyəti üçün dəqiq olmayan qiymət alınır, əksinə, vəziyyətini dəqiq hesablamağa cəhd edirsən, sürəti üçün qeyri-dəqiq qiymət alınır.

3. ***Superpazisiya prinsipi.*** Hissəcik eyni anda müxtəlif yerdə (ola biləcəyi hər yerdə - sonsuz halda) ola bilər. Hissəciklər hər yerdədir və heç yerdədir. Maddə kimi bir yerdə gördüyümüz şeylər, əslində, hər yerdədir. Hissəcik eyni anda hər yerdə ola bilərsə, şeylər zamana görə təkcə irəli deyil, geriyə də gedə bilər (Tərsinə simmetriya qanunu)

4. ***Kopenhagen interpretasiyası***. Mikroaləmdə hissəciklər eyni anda müxtəlif hallarda ola bilər və hadisələrin yalnız ehtimallarından söz açmaq mümkündür. Hissəcik müşahidə olunana qədər dalğa kimi davrandığından fəzadakı yeri məlum deyil, müşahidə zamanı isə zərrəcik kimi davranaraq mümkün məkanlardan birində peyda olur. Yəni hər bir müşahidə edilən hadisə müşahidəçi olmadan mövcud olmur. Xülasə, gerçəklik (reallıq) zənn etdiyimiz nə varsa mütləq deyil, ehtimallardan ibarət olub, onu yalnız müşahidəçinin şüuru formalaşdırır.

Bu nəticələrə nəzər saldıqda onların, demək olar, gördüyümüz dünyada (makroaləmdə) hər hansı birini xatırladan heç bir hadisə ilə rastlaşmırıq. Eynşteyn "Kvant nəzəriyyəsi nə qədər uğurludursa, bir o qədərdə vecsizdir" deyib. Amma bu nəzəriyyəyə belə haqq qazandırılır: O doğrudur, çünki onun doğruluğunun isbatı çox çöyük dəqiqliklə ölçmələrə əsaslanır ki, bu da onun bəlkə də bütün dövrlərin ən dəqiq və uğurlu fizika nəzəriyyəsi olduğunun sübutudur [5].

Yaxşı, bu qədər dəqiq elmi nəzəriyyənin dünya fəlsəfi sistemində yeri neçə müəyyənləşib, daha doğrusu, bu nəzəriyyənin nəticələrinin fəlsəfi fikir aləmi ilə üst-üstə düşən hansı məqamları mövcuddur – öncə tədqiqatımızda bizi bu məsələ maraqlandırdığından, bu konteksdə qısa da olsa tarixi-fəlsəfi bir səyahət edək.

Kainat təkcə maddi deyil. Klassik fizikaya görə, işıq zərrəcik yığınıdır. Bu sahədə sonrakı araşdırmaların nəticəsi olaraq işığın yeni bir xüsusiyəti meydana çıxdı. İşığın şüalanması və udulması porsiyalarla - kvantlarla (bunlara foton deyilir) baş verir. Xülasə, Kvant fizikası deyir: İşıq təkcə zərrəcik deyil, o həm də dalğa halındadır. Bir sözlə, işıq maneəyə rast gələnə qədər dalğa (enerjiyə bürünür), maneyəyə rast gəldiyi zaman isə zərrəcik (qum dənəcikləri şəklində maddə) kimi davranır. Növbəti araşdırmalar daha möhtəşəmdir: təkcə işıq deyil, atomaltı dünyanın digər hissəcikləri

də (elektron, proton və s. elementar hissəciklər) eynən işıq kimi ya dalğa (enerji), ya da zərrəcik (maddə) olaraq davranırlar, yəni bəzən görünür, bəzən də yox olurlar – kvant davranış forması deyilir buna. Kvant nəzəriyyəsində ən maraqlı, sanki metafizik məna daşıyan nəticələrdən biridir bu (qoşa yarıq eksperimenti): mikroaləmi müşahidə edərkən zərrəcik (maddə), müşahidə etmədiyin zaman dalğa (enerji) effekti mövcuddur. Yəni kiçik hissəciklər müşahidə edildikdə zərrəcik – maddi cisim kimi davranırlar, müşahidə edilmədikdə özlərini dalğa kimi aparırlar. Beləliklə, kvant fizikasında hissəcik-dalğa dualizmi yaranır. Yəni, maddə enerji, enerji maddə daşıyıcısıdır. Nəhayət, aparılan elmi araşdırmalardan alınan nəticələrə əsasən, maddə yalnız o, müşahidə olunarkən mövcuddur və müşahidə olunan obyekti müşühidəçidən ayrı təsəvvür etmək mümkün deyil. Beləliklə, belə bir fəlsəfi qənaət hasil olur ki, bütün kainat, maddi dünya nədirsə, o təkcə maddi deyil, həm də enerjidir. Çünki kainatda nə varsa elementar zərrəciklərdən təşkil olunub – elementar zərrəciklər necə, onlardan ibarət dünya da o cür. Deməli, bu dualizmi – dalğa-zərrəcik (maddə-enerji) ikili xüsusiyyəti insana da aid etmək olar. İnsanın yalnız maddi şəkildə görünməsinə səbəb dalğa uzunluğunun çox qısa olması səbəbindən dalğa funksiyasının çökməsi, müşahidə olunmamasıdır. Fizikadan metafizikaya keçid. Möhtəşəmdir, deyilmi? Uzun bir dövr müxtəlif aspektdən (bəzi dini və fəlsəfi dünyagörüşləri nəzərdə tuturam) söylənilib, isbatı üçün dəridən-qabıqdan çıxılan fikirlərin elmi təsdiqi; fiziki varlıq ikili xüsusiyyətə malikdir, o, təkcə maddi yox, həm də qeyri-maddidir və maddi dünyanın təməli enerjidir. Unutmayaq ki, bunu fizika deyir a, təbiət qanunlarını öyrənən bir elm sahəsi.

Atomaltı dünyadakı hissəciklərin gah görünən (maddi – formaya, ölçüyə malik zərrəcik kimi davranış), gah da görünməz olması (dalğa prosesi nəticəsində enerji ötürülməsi) ilə bağlı kəşf isə gerçək zənn etdiyimiz dünyadakı görüntülərin bir kölgə, bir illuziya olması ilə bağlı minillik fəlsəfi düşüncəni oyatmış olur.

Ilk olaraq Platonun “İdeal dünya”sını xatırlamış oluruq. “Fiziki dünya aydın, həqiqi ideyalar aləminin bulanıq təsviridir (kölgəsidir)”. Filosof gerçək, əsl (ali) dünyanın “ideyalar aləmi” olduğunu hesab edir. O bildirirdi ki, bizim gördüyümüz dünya sadəcə əsl dünyanın təsviridir və bu dünyada gördüyümüz nə varsa onun əsli – ideyası və yaxud nümunəsi ideyalar aləmində yerləşir.

**İndiuzim:** Platona qədər bu təlimdə də, əslində, müəyyən mənada oxşar fikirlərə rast gəlirik. Bu təlimə görə, əsas məqsəd həyat şəraitini yaxşılaşdırmaq deyil, sansaranın (reinkarnasiya) əzablarlarla dolu dövretməsindən qurtulub nirvanaya (mokşa) çatmaqdır. Bu vəziyyətin əsas xüsusiyyəti isə mütləq olan Brahmana qovuşmaq və maddi dünyanın bir maya (illuziya) olduğunu dərk etməkdir. Platon gerçək dünyanı “ideyalar aləmi”, bu təlim isə mütləq Brahman, fiziki dünyanı isə təsvir, illuziya – olsa, olsa, şüurun məhsulu hesab edirlər.

**Hegel:** Fiziki aləm başqa bir real – ruhani dünyanın təzahürüdür. Oxşar idealist fikirlərə Hegelə qədərki fəlsəfədə də rast gəlirik. Artıq yuxarıda qeyd etdiyimiz kimi, İnduizm həqiqi (ali) gerçəklik olaraq Brahmanı, Platon “ideyalar aləmi”ni adlandırır. Hegel isə bu dünyanı Mütləq (Absolyut) ideyalar aləmi və Dünya idrakı adlandırır. Onun fikrincə, maddi aləm müstəqil bir varlıq deyil, o olsa-olsa Absolyut ideyanın təzahürüdür. Yəni maddi dünyada nə varsa onun əsli əvvəlcədən Absolyut ideyada yerləşib. Bunula bağlı məşhur bir nümunə var: rəssam ağ vərəqə nəsə çəkirsə, həmin rəsmin təsviri əvvəlcə onun şüurunda mövcud olur [1].

Mikrodünyanın fizikasının verdiyi fəlsəfi qənaət odur ki, gördüyümüz dünya yalnız bizim görüb, dərk edə bildiyimizdir, əsl olan isə fərqli aləmdir. Deməli (doğurdanmı?!), biz özümüz də mövcud olduğumuz dünyayla birgə həqiqi, gerçək dünyanın yalnız təsviri, özü də bulanıq təsviri, kölgəsiyik(?!). Ən azından bir elmin əldə etdiyi nəticələrin bir çox fəlsəfi nəzəriyyələrlə bu qədər uyğunluq təşkil etməsi həm elmi, həm də fəlsəfi fikir baxımından maraqlı olduğu qədər də əhəmiyyətlidir. Məncə, təkcə bu yox, Kvant nəzəriyyəsinin bir çox mühüm elmi nəticələrinin fəlsəfi fikir dünyası ilə hazırda apardığımız digər müqayisələrindən alınan oxşar məqamlar da. Davam edək.

Dünya yalnız biz ona baxdığımız zaman mövcuddur. Kvant fizikasının digər nəticələri əvvəlkilərdən heç də az maraqlı deyil. Heyrətlənmək, hətta polemika, mübahisə üçün kifayət qədər zəngin material verir: insanın gerçək qəbul etdiyi maddi dünya yalnız onun şüurunun məhsulu olaraq var olur – bu dünyada nə varsa, yalnız insan ona baxdığı zaman mövcuddur. Əgər ona baxan şüurlu məxluq yoxdursa, məkan-zaman müstəvisində heç bir varlıq yoxdur. Bir sözlə, bizim gerçək qəbul etdiyimiz dünya, əslində, gerçək yox, yalnız bizim qavrayış imkanlarımızla müəyyən edilən dünyadır. Reallıq qəbul etdiyimiz nə varsa mütləq reallıq deyil, çünki bu reallığı müşahidəçinin düşüncəsi formalaşdırır.

Bu nəticələr konteksində ilk müraciət etmək istədiyim elmi-fəlsəfi ritorika - bu fikirlərin üzərində təxminən 150 il əvvəl israrla dayanan zavallı filosof-idealist C.Berklinin (sağlığında alimin gəldiyi fəlsəfi nəticələr tez-tez lağlağı obyektinə çevrilirdi) Paradokslar nəzəriyyəsidir. Paradokslar nəzəriyyəsi: Bütün dünya yalnız bizim təsəvvürümüzdə mövcuddur. Predmet ona görə mövcuddur ki, biz ona baxırıq. Aponentlərinin bu fikirlərin inkarı üçün əsas arqumenti isə bu idi: əgər predmet təsəvvürümüzün məhsuludursa, demək, biz ona baxmadıqda yox olacaq. Filosofun isə cavabı belə idi: biz baxmadıqda, onu ən azından digər insanlar və yaxud canlılaq seyr edir. Filosofun əsas arqumenti isə Tanrının kəsilməz (aramsız) olaraq bizim dünyanı görüb dərk etməsi məntiqi idi ki, elə bunun hesabına da dünya bizim müşahidəmizdən də kənarda mövcud olur.

Bu elmi nəticələrin prizmasından fəlsəfə tarixinə nəzər saldıqda, Rene Dekartın fəlsəfəsindən – “Şübhələr” metodu və “Anadanfəlmə ideyalar” nəzəriyyəsindən yan

keçmək olmur. Filosof təkcə elmdə deyil, elə həyatın özündə - dünyanın və insanın mövcudolma faktının da şübhəyə səbəb olduğunu iddia edir: Məgər düşünmək olmaz ki, bütün dünya, elə insanın özü də mövcud deyil, bir illuziyadır. Bəlkə elə mən özüm də mövcud deyiləm? – filosof özünə sual verir. Bu məsələdə isə öz şübhələnməsi faktına istinad edərək söyləyir ki, mən şübhələnirimsə, deməli düşünürəm. Düşünürəmsə, demək düşüncənin varlığı isbat olunur. Düşüncə isə düşünən adamdan kənarda ola bilməz. Beləliklə, filosof belə bir fəlsəfi tezis irəli sürür: Düşünürəmsə, demək, varam. Bununla da o, insanın mövcudluğunu isbat olunmuş hesab edir. Bəs dünya? – dünya isə insan düşüncəsinin məhsulu, onun fantaziyası ola bilər. Belə olduğu halda bəs dünya haqqında ideya insan düşüncəsinə necə hopub məsələsinə isə aydınlıq gətirmək üçün Tanrı ideyasına müraciət edir. Onun fikrincə, dünya haqqında ideya insan düşüncəsinə Tanrının özü tərəfindən yerləşdirilib və bu yanaşma isə filosofun “Anadangəlmə ideyalar” nəzəriyyəsində əsaslandırılır.

Yaxşı, dünya bir görüntüdürsə, təsəvvürlər yığınıdırsa, bəs əsl görüntü nədir və ya harada məskən salıb?! Bunu anlamağa çalışsaq, İ.Kanta müraciət edək və görək hissəciklər fizikası bu dahinin də qurduğu fəlsəfi sistemə haqq qazandırırmı?

**Kant:** Filosof bu məsələyə fərqli, subyekt-obyekt münasibətləri prizmasından yanaşır. O, “Təmiz idrakın tənqidi” əsərində əsas hesab etdiyi bir problemi nəzərdən keçirir: həqiqi (mötəbər) elmi bilik mümkündürmü? [1] O, hesab edir ki, maddi varlıqlar haqqında biz yalnız idrakımızın imkanı verdiyi formada (qədər) görüntü əldə edə bilirik, bizə predmetin əsli deyil, onun haqqında təəssüratlar çatır. Filosof görüntünü insan idrakı ilə bağlayır. O, “şey özündə” ifadəsindən istifadə edib, bildirir ki, əsl dünya bir başqa, bizim təsəvvürümüzdəki dünya isə yalnız “bizim üçün şey” olaraq bir başqadır.

Bu da dünyanın gerçək, mütləq deyil, görüntü olaraq insan idrakında yaratdığı bir qeyri-müəyyənlik, qeyri-səlislik.

İndi isə kvant fizikası əsasında yaranan bir çox digər bir neçə nəzəriyyə və konsepsiyalara da fəlsəfəsi müəyyən maraq doğurduğundan onlara nəzər yetirib, ardınca qeyri-səlis çoxluqlar nəzəriyyəsinin fəlsəfəsinin yerini göstərdiyimiz elmi-fəlsəfi müqayisə və paralellər fonunda müəyyənləşdirməyə çalışaq.

İnsan eyni zamanda həm bu, həm də digər dünyalarda. Paralel aləmlər varmı? Yoxsa bunlar da fantastika həvəskarı bəzi düşüncə adamlarının, məsələn, yazıçıların, şairlərin, rəssamların fantaziyalarıdı. Yox. Bunlar bəlkə də nə vaxtsa fantastika olaraq insanları cəlb edə bilərdi. Amma, xeyli zamandı yox. Kvant fizikasının inanılmaz nəticələr zənciri paralel aləmlərin varlığı barədə mülahizələrə qədər uzanır və hazırda heç bir elm sahəsi Paralel kainatlar nəzəriyyəsinin həqiqiliyini inkar etmir.

Paralel kainatlar nəzəriyyəsi də kvant dünyası ilə bağlı bir nəzəriyyədir. İrəli sürülən ehtimallardan biri belədir: hər hansı bir elementar zərrəciyin dəqiq yerini ona görə hesablamaq mümkün deyil ki, o, ola biləcəyi bütün mümkün yerlərdə eyni zamanda olur. Hər hansı bir seçim zamanı elementar zərrəciklərin mikrodünyası ikiləşir. İkiləşən o dünyaların hər biri də iki dünyaya bölünür (yenə də ikiləşir) və s. Beləliklə, sonsuz paralel dünyalar yaranır və hər bir elementar zərrəcik bu sonsuz kainatların hər birində eyni zamanda mövcud olur. Bu mikroaləm üçün mümkündürsə, hesab olunur ki, Kainat üçün də mümkündür; Kainat da hər an saysız-hesabsız Kainatlara bölünür və müşahidə oluna bilən hər bir hadisənin ehtimal olunan bütün versiyaları çoxlu sayda paralel aləmlərdə eyni zamanda mövcud olurlar. Yəni bu dünyada olan hər birimiz bizi əhatə edən hadisələrlə birgə digər paralel dünyalarda da eyni zamanda varıq. Yalnız bir qədər fərqli versiyalarda. Bunu nə ilə müqayisə etmək olar: 6 üzü olan simmetrik bir oyun zəri ilə bağlı eksperimentlə. Zəri atmazdan əvvəl bilirik ki, o, 6 üzündən biri üstə düşəcək və hər bir üzü üstə düşməsi ehtimalı eynidir. Amma atıldığı zaman o yalnız bir üzü üstə düşür. Qalan üzlərinin hər birinin düşməsi hadisəsi isə digər paralel dünyalarda baş verir. Zərin atılması zamanı müşahidə oluna bilən 6 hadisənin hər biri müxtəlif bir-birinə paralel dünyalarda eyni zamanda baş verir. Deməli, bizim dünyada bu məqalənin müəllifi olan şəxs eyni zamanda başqa dünyada onun oxucusudur, başqa bir dünyada isə bu məqaləni dərc edən jurnalın redaktorudur və s.

Kvant nəzəriyyəsinin bir çox digər heyrətamiz nəticələrindən, eyni zamanda bu sahə ilə ya birbaşa əlaqəsi olan, ya da bir çox mülahizələrinin izahı bu sahə ilə bağlı olan nəzəriyyələr barədə söhbəti uzada bilərik. Amma mən yalnız, çox maraqlıdır deyə, hələlik bir neçəsi üzərində dayanacağam.

Kanadanın Nəzəri Fizika İnstitutu tərəfindən təklif olunan bir modelə görə, bizim dünya anti-materiyadan qurulan paralel bir dünyanın güzgüsü ola bilər. Böyük Partlayış zamanı iki bir-birinə simmetrik olan kainat yaranıb: biri bizim yaşadığımız kainat, o biri isə bizim kainatın ”güzgü təsviri” olan digər kainat. Birində zaman gələcəyə, o birində isə tərsinə, keçmişə axır. Və bu kainatlar Kvant nəzəriyyəsinin prinsiplərinə uyğun olaraq bir-birinin tam surəti yox, yalnız bir-birinin oxşarı olaraq mövcuddurlar. Çox maraqlıdır. Yəqin ilk dəfə bu tezislərə rast gələnlər onların çox maraqlı bir fakt olduğunu inkar etməzlər:

Biosentrizm nəzəriyyəsi isə qəti qərar verir ki, ölüm yoxdur. O, insan şüurunda yaranan bir illüziyadır. İnsan bu dünyada ölürsə, başqa paralel dünyalarda yaşamağa davam edir. Bu mühakimə də Kvant nəzəriyyəsinə əsaslanır: istənilən bir hissəciyin müşahidə və ya ehtimal oluna bilən bütün variasiyaları eyni vaxtda müxtəlif kainatlarda mövcud olurlar. Yenə də Paralel dünyalar, Kvant nəzəriyyəsi.

Bu möhtəşəm metafizik nəticələr fonunda mən də elmin və fəlsəfənin qüdrətindən istifadə edərək bir məsələyə - yuxugörmə fenomenal hadisəyə tamamilə

fərqli bir elmi-fəlsəfi yanaşma (təyin) təqdim etmək istərdim: Yuxuda görülənlər fərqli zaman-məkan müstəvisinin gerçək hadisələridir [12].

Yuxu, elmi informasiyalardan məlum olduğu kimi, fizioloji prosesdir və canlıların əksəriyyətinə xas xüsusiyyətdir. Yəni canlıların əksəriyyəti yatır və bununla da bir növ özünü yenidən bərpa edir. Lakin bizi maraqlandıran yuxugörmə halıdır ki, bu fenomenə müxtəlif elmi, fəlsəfi, mistik yanaşmalar mövcuddur. Elə bu müxtəliflik, yeri gəlmişkən qeyd edim ki, həm də yaradıcı sahələr üçün də kifayət qədər maraqlı və qeyri-adi xammal hazırlayır.

Ümumiyyətlə, fəlsəfi fikir tarixində yuxugörməyə, əsasən, iki münasibət mövcud olmuşdur:

*1.Yuxugörmə – keçmişin, yəni yaşananların nəticəsidir; 2. Yuxugörmə gələcəkdən xəbər verir.*

Lap qədim zamanlardan insanlar yuxu zamanı görülən hadisələrə və predmetlərə müəyyən yozum verir, onları gələcək hadisələr barədə işarələr kimi anlayırdılar. Məsələ burasındadır ki, bu tendensiya hazırda da cəmiyyətin bəzi dairələri arasında öz aktuallığını saxlayır. Bu yozumlar nə dərəcədə həqiqətə uyğundur? Gələcəklə bağlı yuxuyozmalar barəsində hər hansı bir elmi əsaslandırmaya rast gəlmədiyimdən bu barədə dəqiq bir söz deməyə çətinlik çəkirəm.

Freydə görə, yuxular gələcəkdən yox, keçmişdən xəbər verir. O, irəli sürdüyü bu tezisin izahını Psixoanalizin köməyi ilə verir. Hesab edir ki, yaşam boyu şüuraltına yığılmış istəklər, görüntülər, həyata keçməyən arzular insan yatdığı zaman donunu dəyişib, onun şüuruna yuxular kimi daxil olurlar.

Demək, hər iki halda – istər keçmişdən xəbər versin, istər gələcəkdən, yuxugörmə - şüurla, insan düşüncəsi ilə bağlı hadisədir. Belə olan halda, biz də bu məsələyə bir qədər fərqli – bu vaxta kimi mövcud olan konteksdən fərqli, elmin və fəlsəfənin inteqrasiyası prizmasından yanaşsaq, ortaya nə kimi məqamlar çıxar, görəsən? Bəlkə özümüzü sınayaq: Hesab edək ki, *yuxu zamanı gördüyümüz hadisələr də elə gerçək hadisələrdir. Fərqli məkan-zaman müstəvisinin real hadisələri. Nəyə görə? Fikir verin: yuxuda hadisələr elə sürətlə baş verir, əslində, həmin hadisələr real həyatda daha uzun zaman axınında yaşanardı. Yəni real həyatda uzun zaman kəsiyində baş verən hadisələri yuxuda bir neçə dəqiqə, bəzən də bir neçə saniyə ərzində müşahidə etmək mümkündür. Deməli, yuxuda zaman axını dəyişir, daha dəqiq, yuxuda zaman qısalır. Ümumi nisbilik nəzəriyyəsinə istinad etsək, fərqli zaman axını hadisənin fərqli məkanda baş verməsi anlamını da yaradır. Kvant fizikası, müəyyən mənada onun doğurduğu Paralel kainatlar nəzəriyyəsi, Biosentrizm nəzəriyyəsi bir daha təsdiq edir ki, çoxlu sayda kainat (paralel aləmlər) var və müşahidə oluna bilən hər bir hadisənin müxtəlif variasiyaları (fərqli ehtimallarla) bu kainatlarda eyni zamanda mövcud*

*olurlar. Bu elmi-fəlsəfi mülahizələrə söykənsək, yuxuda gördüklərimizin fərqli zaman-məkan müstəvisində baş verən gerçək hadisələr olduğunu fərz edə bilərik.*

## Fəlsəfi təhlildə QSC nəzəriyyəsinin yeri: Epistemoloji yanaşma

Kvant fizikasının heyrətamiz nəticələrinin dünya fəlsəfi fikri ilə müqayisəsinin xülasəsini bir neçə tezislə ümumiləşdirək:

*-Dünya yalnız görüntüdür, yəni dünya əsl gerçəkliyi ilə deyil, yalnız müəyyən təzahürləri ilə bizim düşüncəmizin obyektidir.*

*-Dünya insan idrakının qəbul edəcəyi (müxtəlif dərəcədə) qədər onun üçün mövcuddur: sanki dünya bir dəryadır, insan idrakı o dəryadan tutumu qədər pay götürə bilən fincan.*

*-Dünya insan ona baxdığı zaman mövcuddur – varlığın mütləqliyi deyil, idrakın varlığa münasibətdə şərtiliyi, qeyri-müəyyənlik olaraq qeyri-səlisliyi.*

**Mənsubiyyət funksiyası (MF).** MF QSÇ nəzəriyyəsinin əsasını təşkil edən elmi aparatdır. Bu aparatın fərqli və elmi-fəlsəfi gücü nədədir ki, bir çox elmi-nəzəri, elmi-praktik və bir çox digər sahələrdə xüsusi rola malikdir. Bildiyimiz kimi, klassik çoxluqlar nəzəriyyəsində (KÇN) elementin çoxluğa münasibəti (aidiyyəti) məsələsində yalnız iki mülahizə (qiymət: 1 və 0) müəyyənləşdirilir: element ya çoxluğa daxildir - 1, ya da daxil deyil - 0. Mənsubiyyət funksiyası isə elementin çoxluğa müəyyən dərəcə ilə aid olduğunu (daxil olduğunu) müəyyənləşdirən riyazi aparatdır. Daha doğrusu, MF elementin çoxluğa nə dərəcədə daxil olduğunu – hansı dərəcədə aid olduğunu bildirən və (0,1) qapalı intervalından qiymət alan funksiyadır. Bu mənada KÇN QSÇ nəzəriyyəsinin xüsusi halı olaraq müəyyənləşdirilir: element çoxluğa daxildirsə, MF - 1, daxil deyilsə 0 qiymətini alır. Göründüyü kimi, QSÇ nəzəriyyəsində MF hadisəyə münasibətdə hər hansı bir mülahizənin doğruluğunu mütləq deyil, müəyyən dərəcə ilə qiymətləndirir [7,8,14].

**Linqivistik dəyişənlər (LD).** QSC nəzəriyyəsində mühüm anlayışlardan biri linqivistik dəyişən konsepsiyasıdır. Linqivistik dəyişən adi dəyişənlərdən fərqi ondadır ki, o, ədədlərlə deyil, sözlərlə ifadə olunur. Bu anlayış müşahidə obyektindən daha çox xüsusiyyət əldə etmək imkanı yaradır. Linqivistik dəyişənlərlə bağlı məsələlər mənsubiyyət funksiyasından istifadəyə əsaslanır [7,9,11,13].

Həm linqivistik dəyişən, həm də mənsubiyyət funksiyasının mahiyyətini araşdırma predmetimiz baxımından daha yaxşı anlamaq üçün elmi ədəbiyyatlarda daha çox istifadə olunan bir nümunəyə baxaq. Numunə: Fərz edək LD olaraq “Yaş” anlayışı verilmişdir və bu dəyişən üç qiymət (term) qəbul edir: cavan, orta yaşlı və qoca. Bu qiymətlərdən hər biri də ayrılıqda bir çox vəziyyətləri özündə ehtiva edir. Məsələn,

cavan: həddən çox cavan, çox cavan, cavan, qismən cavan, nə çox cavan, nə çox ortayaşlı, nə cavan, nə ortayaşlı, ...
Eyni zamanda orta yaşlı və qoca termləri (qiymətləri) üçün də bu şəkildə sintaksis qayda hesabına çoxlu vəziyyətlər yaratmaq mümkündür. Və bu vəziyyətlərin hər birinə müəyyən MF funksiyası məxsusdur və hər bir MF həmin vəziyyətlərin Yaş LD-yə hansı dərəcə ilə mənsub olduğunu bildirir. Klassik – ikiqiymətli məntiqdən fərqli olaraq iki qiymətlə - cavan deyilsə orta yaşlı və yaxud orta yaşlı deyilsə ya cavan, ya da qoca kimi qiymətləndirmir. Çünki hər hansı bir insanın yaşı müşahidə obyektinə çevrilərsə, təfəkkürdə yaş kateqoriyasına qarşı müxtəlif münasibətlər yaranır: uşaqdırmı, cavandırmı, orta yaşlıdırmı, qocadırmı? - Əgər cavandırsa, nə dərəcə cavandır, qocadırsa, nə dərəcədə qocadır və s. Göründüyü kimi, predmetə münasibət qeyri-ixtiyari insan təfəkküründə çoxqiymətli – qeyri-səlis yanaşma doğurur. Məsələn, ucaboyludursa, nə dərəcədə ucaboydur, qırmızı rəngdirsə nə dərəcədə qırmızıdır, kiçik və yaxud böyük ədəddirsə nə dərəcədə kiçik və yaxud böyük ədəddir və s.

Mənsubiyyət funksiyası, həmçinin linqivistik konsepsiya, bu mənada, yəni varlığa çoxqiymətli münasibətdə insan təfəkkürünü ifadə edən əsas elmi aparatlardan biridir.Mənsubiyyət funksiyasının elmi təyinindən sonra onun fəlsəfəsini yuxarıda qeyd edilən hadisələr fonunda nəzərdən keçirək. Bu baxış apardığımız təhlildə QSC nəzəriyyəsinin yerini müəyyənləşdirmiş olacağına əminliklə işə davam edirəm. Varlığa yanaşmada çoxqiymətli məntiq – gerçəkliyin mütləq deyil, dərəcə ilə ölçülməsini ifadə edir. Əslində bu ölçü hər hansı varlığı, hər hansı mülahizəni daha çox anlamaq imkanı yaradır, nəinki ikiölçülü yanaşma – hə (1) və yaxud yox (0). Çünki insan hadisələrə, irəli sürülən mülahizələrə daha çox qeyri-səlis yanaşır. Bu yanaşma isə varlıqdan daha çox təzahürlər “qoparmağa” xidmət edir. Məsələn:

**Model.** Bildiyimiz kimi, model müşahidə predmeti olan hər hansı bir obyektin və ya hadisənin təsviri olaraq, həmin predmetlərin müəyyən xüsusiyyətlərini, müəyyən funksiyalarını ifadə edir. Məlumdur ki, istənilən bir model gerçəkliyi tam ifadə etmir və hər hansı bir model o zaman daha adekvat olur ki, o təsvir etdiyi obyektin daha çox funksionallığını ifadə etmiş olsun. Bu isə obyektə yanaşma - təfəkkür məsələsidir. Bir var müşahidə predmetinə ikiqiymətli məntiqlə yanaşasan, bir də var ondan daha çox xüsusiyyətlər “qoparmaq” üçün çoxqiymətli məntiq işə salınsın. Mənsubiyyət funksiyası, yuxarıda qeyd etdiyimiz kimi, təfəkkürü ifadə edən (çoxqiymətli məntiqlə yanaşma baxımından) samballı bir elmi aparatdır.

Bütün hallarda varlıqdan nə qədər çox cəhətlər əldə olunsa da, tam, mütləq gerçəklik əldə olunmur. Nə qədər anlaya, nə qədər görə bilirik, varlıq da bizə “sirrini elə o qədər verib”, o qədər mövcud olur.

Kvant fizikasının fəlsəfəsinin dünya fəlsəfi fikri ilə müqayisəsi nəticəsində alınan yuxarıda qeyd edilən tezislər gerçəkliyin mütləq deyil, dərəcəsi ilə varlığını göstərir. QSC (QSM) nəzəriyyəsinin fəlsəfəsinə nəzər yetirəndə də məhz bunun

təsdiqinin şahidi oluruq: mütləq heç nə yoxdur, var olan hər şey dərəcəsi ilə mövcuddur. Çünki predmetə münasibətdə həmişə bir-birinə zidd iki mülahizə arasında sonsuz vəziyyətlər, nüanslar var. Deməli, bu nəzəriyyənin imkanları varlıqdan kəmiyyət göstəriciləri ilə yanaşı, nə qədər mümkündür keyfiyyət göstəriciləri də əldə etməyə imkan verirsə, yenə də "şey özündə" qalır, varlıq haqında əldə etdiklərimiz onun əsli, tam gerçəyi yox, bir görüntüsüdür. Lakin bu samballı nəzəriyyə varlıqdan daha çox görüntü, "şey özündə"dən daha çox sirr əldə etməyə imkan verir.

Bu məqalədə adını çəkdiyimiz, fəlsəfəsinə bacardığımız qədər baş vurmağa çalışdığımız elmi nəzəriyyələrin çağdaş dünyamızda həm də elmi-praktik əhəmiyyəti danılmazdır. Tədqiqat istiqamətlərimdən biri bilik fəlsəfəsinin yaradıcılıq sahəsində ifadəsi ilə bağlı olduğundan, fəlsəfi təfəkkürü oyadan elmi faktlara biganə qala bilmirəm. Elmi informasiyaların yaradıcı sahələrdə, xüsusilə bədii yaradıcıqda ifadə konsepsiyası - intellektual səciyyəli bədii mətnlərin yaranması üçün təqdim etdiyim model üç komponentdən ibarətdit: **elmi informasiya – fəlsəfi düşüncə– bədii təfəkkür (Eİ – FD – BT).**

**Ədəbi suprematizm** nəzəriyyəsinin əsasını bu model təşkil edir və elmi informasiyanın fəlsəfi düşüncə vasitəsilə bədii mətnə gətirilməsi texnikası bu modelin köməyi ilə həyata keçirilir [12]. Bu məqalədə QSÇ nəzəriyyəsinə qədər uzanan yolda baş vurduğumuz kvant nəzəriyyəsinin və dünya fəlsəfi fikrinin müqayisəli təhlilində bir çox məqamlarla yanaşı, bir maraqlı nəticədə də qeyd etdiyim ritorika baxımından bədii təfəkkürümü oyatmış oldu: reallıq zənn etdiyimiz nə varsa, əslində, əsl gerçəkliyin özü yox, onun təsviridir:

**Əksim və mən**

*Gedirəm,*
*kölgəm gah irəlidə,*
*gah də geridə.*
*Gah da çəkilir qeyri-müəyyənliyə.*

*Dayanmışam qarşısında:*
*güzgü - əksim hərəkətdə.*
*Çəkilirəm,*
*əksim gizlənir zülmətdə.*

*Oturmuşam.*
*Qarşımda fotolar – şəkillərdə*
*dördbucaqlı xatirələr.*
*Baxmıram,*
*yox olur hadisələr.*

*Kölgə (gedirəm),*
*güzgüdə əksim (dayanmışam),*
*fotolar (oturmuşam)*
*və*
*mən (gedirəm, dayanmışam, oturmuşam).*

*Nə sirr var bunlarda,*
*yəni kölgədə, güzgüdə, fotolarda? –*
*həm mənəm,*
*həm də mən deyiləm.*

*Nə sirr var? –*
*birini deyim:*
*mən üçölçulu – fəzada hərəkətdə,*
*onlar müstəvidə - ikiölçülü təsvirim.*

*Nə sirr var məndə,*
*nə sirr var? –*
*birini deyim:*
*mən də təsvirəm,*
*üçölçülü güzgüyəm, şəkiləm, kölgəyəm.*

## Nəticə

Məlum olduğu kimi, XX əsrin əvvəllərində kvant fizikasının yaranması elmi sahələrdə yeni tədqiqat istiqamətləri, yeni nəzəriyyələr yaratmaqla yanaşı, fəlsəfi araşdırmalar üçün də yeni imkanlar açdı. Yəni bu yeni fizikanın metafizik xarakterli bir çox nəticələri tarixi-fəlsəfi yaddaşı oyadıb, fəlsəfi araşdırma üçün xeyli zəngin materal yaratmış oldu. Bu məqalədə kvant fizikasının əsas metafizik nəticələri ümumiləşdirilərək, dünya fəlsəfi fikir sistemində varlıq barədə yer almış bəzi ontoloji nümunələrlə elm və fəlsəfənin inteqrasiyası konteksində paralellər aparılır, oxşar məqamlar göstərilərək təhlil olunur. Bu araşdırmanın yenilikçi tərəflərindən biri də bu təhlildə qeyri-səlis çoxluqlar nəzəriyyəsinin bir dəqiq elm sahəsi kimi fəlsəfəsinin yeri və əhəmiyyəti müəyyənləşdirilir. Fəlsəfi düşüncənin varlıq haqqında “dünya bir görüntüdür, gerçək olan dərkedilməzdir”, “reallıq mütləq deyil, onu insan düşüncəsi formalaşdırır”, “dünya ona görə var ki, biz ona baxırıq” və s. kimi tapdıqlarının bir çoxunu kvant fizikası, bir növ belə demək mümkünsə, yenidən elmi şəkildə tapırsa, qeyri-səlis çoxluqlar (qeyri-səlis məntiq) nəzəriyyəsinin dəqiq elm sahəsi olaraq doğurduğu fəlsəfə ümumiləşdirmə apararaq sanki epistemoloji təsdiqini təqdim edir: mütləq heç nə yoxdur, var olan yalnız dərəcəsi ilə mövcuddur. Hesab edirik bu

istiqamətdə, yəni tarixi-fəlsəfi analiz və elmi-nəzəri sahələrdə QSC-nin yeri, rolu və əhəmiyyəti ilə bağlı araşdırmaların miqyasının genişləndirilməsi elm və fəlsəfənin inteqrasiyası aspektində faydalı nəticələrin əldə olunmasına təkan verəcək.

## Açıqlama bəyanatı

Müəllif (lər) tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

**Əlaqə**

**E-mail:** ali_shirin@mail.ru

## Ədəbiyyat:


Философия. Москва: Эксмо 2019.

Влади́мир Спиридо́нович Готт. Философские вопросы современной физики. М.Высшая школа 1972.

Валентин Данилович Эрекаев. Современная философия и квантовая физика. Москва 2007.

Stepehen Hawking. Zamanın qısa tarixi. Qanun nəşriyyatı 2018;2020

Miçio Kaku. Gələcəyin fizikası. Qanun nəşriyyatı 2022.

Александр Павлович Рыжов. Элементы теории нечетких множеств и ее приложения. Москва 2003.

Лютфи Заде. Понятие лингивистической переменной и его применения к принятию приблизительных решений. М.Мир 1976. 8.Д.Р. Григорева, Г.А. Гареева, Р.Р.Басырова. Основы нечеткой логики. Набережные Челны 2018.

Лиана Анатолиевна Амаева. Системы искусственного интеллекта. Нижнекамск 2012.

Соколова Олеся Игоревна. Понятие неопределенности в неклассической науке и философии. Н.Новгород – 2020.

Ə.M.Abbasov, V.Ə.Qasımov, R.A.Quliyev. İntellektual informasiya sistemlərində qərar qəbuletmə üsulları. İqtisad Universiteti 2002.

Əli Şirin Şükürlü. Ədəbi suprematizm və dünyaya yeni baxış. Bakı. Vektor 2019.

Lotfi A. Zadeh. Fuzzy logic and approximate reasoning. Synthese, 1975

Lotfi A. Zadeh. Fazzy sets. İnformation and control, 1965.

Bródy Tamás Péter. The philosophy behind physics. – B., 1993


**Məqaləyə istinad** ŞÜKÜROV, Əlişirin. Kvant fizikasının bəzi nəticələrinin fəlsəfi təhlilində qeyri-səlis çoxluqları nəzəriyyəsinin yeri:Epistemoloji aspektlər.Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 29,2024. s.38-54. DOI: 10.30546/2616-4418.29.2024.38

## SUMMARY

### The place of fuzzy set theory in the philosophical analysis of some results of Quantum Physics: Epistemological aspects

**Alishirin SHUKUROV**
**The State Examination Center, Azerbaijan**

In the article, the main metaphysical results of quantum physics are summarized, parallels are made in integrating science and philosophy with some ontological examples of existence in the world's philosophical thought system, and similar points are analyzed. Taking into account that it is important to examine the philosophy of fuzzy set theory as a thinking model from different directions, a scientific-theoretical view of the theory is presented, the philosophy of this theory is analyzed from an epistemological aspect and the role of the philosophy of this theory as a field of science is defined in the comparative analysis of the results of Quantum physics with different philosophical thought systems. Since one of my research directions is related to the expression of the philosophy of knowledge in the field of creativity, this article also examines the concept of the expression of the philosophy of science in artistic creation and an example of one of the obtained results in an artistic context is presented.

***Keywords:*** Atom, subatomic particle, particle, wave, matter, energy, microcosm, quantum, fuzzy set, membership function, linguistic variable, world of ideas, Absolute - Absolute idea, biocentrism.

## РЕЗЮМЕ

**Место теории нечетких множеств в философском анализе некоторых результатов Квантовой физики: Эпистемологические аспекты**

**Алиширин ШУКУРОВ**
**Государственный Экзаменационный Центр (ГЭЦ) , Азербайджан**

В статье обобщены основные метафизические результаты квантовой физики, проведены параллели в контексте интеграции науки и философии с некоторыми онтологическими примерами существования в системе мирового философского мышления, а также проанализированы аналогичные моменты. Учитывая, что философию теории нечетких множеств как модели мышления важно рассматривать с разных сторон, представлен научно-теоретический взгляд на теорию, а философия этой теории анализируется с гносеологического аспекта и роль философии этой теории как области науки определяется в сравнительном анализе результатов квантовой физики с различными философскими системами мышления. Поскольку одно из моих научных направлений связано с выражением философии познания в области творчества, в данной статье также рассматривается понятие выражения философии науки в художественном творчестве и представлен пример одного из полученных результатов в художественном контексте.

***Ключевые слова:*** Атом, субатомная частица, частица, волна, материя, энергия, микрокосм, квант, нечеткое множество, функция принадлежности, лингвистическая переменная, мир идей, Абсолют – Абсолютная идея, биоцентризм.